

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 121 (24.008)

*30 iyun 2022-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## *Rəsmi xronika*




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xəzəryanı Dövlətlərin Dövlət Başçılarının VI Zirvə Toplantısında iştirak etmək üçün iyunun 29-da Türkmənistana səfərə gəlib. Aşqabadda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkmənistan Parlamenti Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov, Aşqabadda Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov, İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisi ilə görüşləri olub.

İyunun 29-da Aşqabadda Xəzəryanı Dövlətlərin Dövlət Başçılarının VI Zirvə Toplantısı keçirilib. Zirvə Toplantısını açan Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov çıxış üçün sözü Azərbaycan Prezidenti İlham Əliyevə verib. Dövlətimizin başçısı Zirvə Toplantısında çıxışında qeyd edib ki, Azərbaycan ölkələrimizin Xəzərdə qarşılıqlı fəaliyyətinə böyük əhəmiyyət verir. Xəzər dənizinin hüquqi statusuna dair 2018-ci ildə Aktauda imzalanmış Konvensiya tarixi əhəmiyyət kəsb edir. Xəzəryanı dövlətlərin əməkdaşlığının müqavilə-hüquqi bazası möhkəmlənir. Bildirilib ki, Azərbaycan hazırda Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulması və bərpası, o cümlədən beynəlxalq nəqliyyat əlaqələrinin inkişafı üzrə genişmiqyaslı işlər görməyə başlayıb. Zəngəzur dəhlizi artıq reallığa çevrilir.

Prezident İlham Əliyev çıxışında vurğulayıb ki, Azərbaycan Xəzər dənizinin ekoloji problemlərinin həlli üçün əməkdaşlığın genişləndirilməsində maraqlıdır. Xəzərin bioloji su ehtiyatlarının qorunub saxlanması və səmərəli istifadəsi üzrə komissiya çərçivəsində Xəzəryanı dövlətlərin uğurlu qarşılıqlı fəaliyyəti davam edir. Məhdud tərkibdə görüşdə xüsusi narahatlıq doğuran məsələlər, konkret olaraq Xəzər dənizinin dayazlaşması barədə fikir mübadiləsi aparıldı. Dövlətimizin başçısı çıxışının sonunda Sammitin səmərəli təşkilinə görə Türkmənistan tərəfinə bir daha təşəkkürünü bildirib.

*“Sənaye ili” – 2022*

## Muxtar respublikada qəbul olunan Dövlət proqramlarında sənayenin xüsusi yeri var

***Sənaye iqtisadiyyatın mühüm sahələrindən biridir. Bu sahənin inkişaf etməsi cəmiyyətdə istehsal gücünün artmasına əhəmiyyətli dərəcədə təsir göstərir. Sənaye dedikdə, gözümüzün qabağında müəssisələrin, zavodların, fabriklərin toplusu canlanır. O, əsasən, iki böyük sahəyə ayrılır: emal və hasilat sənayesi. Son dövrlərə qədər ölkəmizin sənayesi üçün əsas xüsusiyyət onun neft-qaz sahəsi və metallurgiya üzrə ixtisaslaşması olmuşdur. Lakin son illər ərzində yeni Dövlət proqramlarının və strateji yol xəritələrinin hazırlanması digər sənaye sahələri istiqamətində də geniş perspektivlər açmışdır.***



Uzun illər blokada vəziyyətində olan muxtar respublikamız üçün sənayenin inkişaf etdirilməsinin böyük əhəmiyyəti vardır. Aqrar bölgə kimi tanınan regionumuzda son zamanlar aparılan genişmiqyaslı islahatlar burada güclü sənaye potensialının yaradıldığını deməyə əsas verir. Muxtar respublikada 2022-ci ilin “Sənaye ili” elan edilməsi və bununla bağlı “Tədbirlər Planı”nın təsdiq edilməsi həm dövlət qurumları, həm də iri-xırdalı müəssisələr qarşısında geniş vəzifələr müəyyən edir. Beləliklə, “Sənaye ili” həm də öncəki illərdə bu sahədə görülən işlərin tətbiqini sürətləndirir, yerli istehsalın həcmini artırır. Nəzərə alaq ki, bu gün muxtar respublikada ixracyönümlü və rəqabətə davamlı məhsulların istehsalı, yeni texnologiyalara əsaslanan müəssisələrin qurulması və bu istiqamətdə artım tempinin əldə olunması qarşıda duran əsas vəzifələrdir.

Bu günə qədər qəbul olunmuş Dövlət proqramlarında iqtisadiyyatın bütün digər sahələri ilə yanaşı, sənayedə də infrastruktur təminatının gücləndirilməsi, rəqabətqabiliyyətli müəssisələrin yaradılması yönündə çoxsaylı layihələr həyata keçirilmiş, yeni iş yerləri açılmış, məşğulluq imkanları artırılmışdır. Ümumi sosial-iqtisadi inkişafla bağlı müəyyən illəri əhatə edən əsas layihələr – “Naxçıvan Muxtar Respublikasının Regional İnkişaf Proqramı” (2005-2008-ci illər), “Naxçıvan Muxtar Respublikasının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”, “Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” və “Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”dır. Sadalanan ilk üç proqramın icrası başa çatdırılmış və sənayenin inkişafında əhəmiyyətli nəticələr əldə olunmuşdur. 2005-ci ildə muxtar respublikada istehsal olunmuş sənaye məhsulu orta hesabla 41 milyon 207 min manat təşkil etmişdir. 2008-ci ildə isə sənaye məhsulunun həcmi 164 milyon 452 min manat olmuşdur. Yeni Dövlət proqramının icra olunması dövründə məhsul istehsalı 4 dəfəyə yaxın bir artımla müşahidə olunmuşdur. 2009-2013-cü illəri əhatə edən sosial-iqtisadi inkişafla bağlı növbəti Dövlət proqramının icrası müddətində sənaye məhsulunun istehsalında 4 dəfədən çox artım qeydə alınmışdır. 2013-cü ildə məhsul istehsalının həcmi 862 milyon 870 min manat olmuşdur. “Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrası dövründə isə, sənaye məhsulunun həcmi yekun ildə 990 milyon 67 min manat məbləğində olmuşdur ki, bu da proqram işə başlayan dövrlə müqayisədə 10 faizə yaxın artım deməkdir.

Hazırda icrası davam etdirilən “Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”dır. Proqramın əhatə dairəsi genişdir və muxtar respublikanın hərtərəfli inkişafında böyük əhəmiyyət daşıyır. Proqramda sənaye sahəsinin daha da inkişaf etdirilməsi üçün mühüm vəzifələr qarşıya qoyulmuş və “Tədbirlər Planı” hazırlanmışdır. Onu da qeyd edək ki, ilk dəfə olaraq





2019-cu ildə muxtar respublikada istehsal olunan sənaye məhsulunun həcmi 1 milyard manatı keçmişdir. Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət proqramının həyata keçirilməsi üzrə “Tədbirlər Planı”nda sənaye üzrə bir sıra inkişaf tədbirləri nəzərdə tutulmuşdur. İcraya əsasən Naxçıvan Muxtar Respublikasında yeni sənaye müəssisələrinin yaradılmasının davam etdirilməsi, fəaliyyəti dayanmış sənaye və emal müəssisələrinin fəaliyyətinin bərpasının dəstəklənməsi əsas diqqət mərkəzində saxlanılmışdır. Sənayedə getdikcə yüksələn artım tempi həm də bu sahədə çalışan işçilərin sayında müşahidə olunmaqdadır. Dövlət proqramlarının yekun illərinə nəzər saldıqda görmək olur ki, bu sahə üzrə dövlət və özəl sektorda çalışan işçilərin ümumi sayı 2008-ci ildə 7701, 2013-cü ildə 15385, 2018-ci ildə 16557, 2021-ci ildə isə 17087 nəfər olmuşdur. Halbuki 2005-ci ildə sənayedə çalışanların sayı 3830 idi.

2022-ci ilin “Sənaye ili” elan edilməsi muxtar respublikada dövlət qurumları və sahibkarlıq müəssisələri qarşısında mühüm öhdəliklər qoyur. Sənaye sahəsində əsaslı nailiyyətlərə nail olmaq muxtar respublika iqtisadiyyatının daha da şaxələndirilməsinə, ümumi sosial-iqtisadi inkişafa ciddi təsir göstərəcəkdir.

**Eltun İBRAHİMOV**
***AMEA Naxçıvan Bölməsinin əməkdaşı, iqtisad üzrə fəlsəfə doktoru***

## “HUAWEI” şirkətinin mütəxəssisləri tərəfindən seminar keçirilib



*Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin təşkilatçılığı ilə “HUAWEI Technologies Azerbaijan” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən nazirliyin aparatının və tabeli qurumlarının mühəndisləri, rabitə mütəxəssisləri və kabelçi-lehimləyicilər üçün “Yeni GPON texnologiyaları” mövzusunda seminar keçirilib.*

Nazirliyin Məlumat hesablama və informasiya texnologiyaları şöbəsinin müdiri Etibar Əjdərov tədbirin mahiyyəti haqqında ətraflı məlumat verib. Seminarın əhəmiyyətinə toxunaraq bildirib ki, nazirlik tərəfindən kadr hazırlığı prioritet olmaqla işçilərin aidiyyəti sahələr üzrə zəruri biliklərə yiyələnmələri məqsədilə müvafiq tədbirlər həyata keçirilir.

“HUAWEI Technologies Azerbaijan” Məhdud Məsuliyyətli Cəmiyyətinin müştərilərlə iş üzrə direktoru Jao Hongbo “HUAWEI” texnologiyalarından danışarkən qeyd edib ki, şirkət müştərilərə keyfiyyətli məhsul və xidmətlər təqdim edir, o cümlədən HUAWEI tərəfindən istehsal olunan ağıllı cihazlarla insanların bütün sahələrdə rəqəmsal təcrübəsini təkmilləşdirir.

“HUAWEI Technologies Azerbaijan” Məhdud Məsuliyyətli Cəmiyyətinin mühəndisi Murad Cümşüdov isə iştirakçılara slayd və videomateriallar vasitəsilə təlim keçib.Təlimçi XPON, XDSL, VDSL, HDSL/HDSL2 texnologiyaları ilə yanaşı, yeni GPON (Gigabit tutumlu Passiv Optik Şəbəkə) texnologiyaları və üstünlüklərindən bəhs edərək bildirib ki, bu texnologiya hazırda ən müasir fiber-optik şəbəkələrdən olub abunəçinin bir fiber-optik xətt üzərindən multimedia xidmətlərinin müasir standartlara uyğun təşkilinə imkan verir. Bu yeni texnologiyanın üstünlüklərinə gəldikdə isə yüksək ötürmə qabiliyyəti, 100 Mbit/saniyəyə qədər qoşulma sürəti, kəsintisiz rabitə və telefon xətlərindən asılılığın olmaması, abunəçinin bir cihazdan bir neçə xidmətə eyni vaxtda qoşulmasına imkan yaradır.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

*Muxtar respublikamızda meyvəçilik və tərəvəzçilik əhalinin əsas məşğuliyyət sahələrindəndir. Diyarımızın torpaq-iqlim şəraiti burada müxtəlif meyvə, giləmeyvə ağaclarının yetişdirilməsinə, inkişafına, bol və yüksəkkeyfiyyətli məhsul verməsinə əlverişli imkanlar yaradır. Ona görədir ki, muxtar respublikamızın hansı bölgəsinə üz tutsaq, meyvə bağlarına rast gəlirik. Bağlar diyarı kimi tanınan Ordubad rayonu isə meyvələrinin özünəməxsus dad-tamı ilə hər yerdə seçilir.*

*Ailə təsərrüfatlarımız*

# Ordubadın ləziz meyvəsi




Rayonun torpağı, havası, suyu ta qədimdən burada meyvəçiliyin inkişafına zəmin yaradıb. Bu aqrar sahə min illərboyu Ordubad sakinlərinin başlıca məşğuliyyət sahələrindən biri olub. Bol, keyfiyyətli, həm də rəngarəng çeşidli təzə meyvə, meyvə qurusu və meyvə şirələri istehsalçısı kimi Ordubadın şöhrəti hər yana yayılıb. Bu bölgə həm də özünün ərik bağları ilə məşhur olub. Deyəcəksiniz ki, ərik bir çox rayonlarımızda, kəndlərimizdə becərilir. Niyə məhz təkcə Ordubad əriyi hər yerdə deyilir və tanınır? Gəlin bu sualımıza cavab almaq üçün Ordubad rayon sakini, 30 ildən çox bağçılıq təcrübəsinə malik, peşəkar bağban Rahim Kərimovu dinləyək: – Ulu öndərimiz Heydər Əliyev Ordubadı Azərbaycanın incisi adlandırıb. Bu da təsadüfi deyil. Ordubad bir vaxtlar ipəkçiliyin,baramaçılığın, meyvəçiliyin ən çox inkişaf etdiyi rayon olub. Hələ Naxçıvan xanlığı dövründə Ordubadın bağlarında yetişən şaftalı, gilas, gilənar,



gavalı, cəviz, ərik və digər meyvələr bütün Qafqazda tanınıb. Ordubad əriyi isə Cənubi Qafqazın ərik növləri içərisində ən üstün meyvə növü sayılıb. Ordubaddan Tbilisiyə, Rusiyanın mərkəzi şəhərlərinə min pudlarla quru ərik daşınıb. Sevindiricidir ki, bu gün də Ordubadımızda bağçılıq, meyvəçiliklə məşğuliyyət qorunub saxlanılıb. Belə demək olar ki, əhalinin əsas gəlir mənbəyinin bir hissəsini də meyvəçilik təşkil edir.

Söhbət zamanı öyrənirəm ki, kənd təsərrüfatının bağçılıq və üzümçülük sahəsi ilə məşğul olan müsahibim Ordubadda qədim meyvəçilik ənənələrini öz fəaliyyəti ilə yaşadır, itmək təhlükəsi ilə üz-üzə qalan meyvə ağacı sortlarını bərpa edir. Bundan əlavə, bağında sitrus meyvələr, dekorativ ağaclar, güllər, qızılgüllər yetişdirir. Müsahibim qeyd edir ki, Ordubadın əsas beş meyvəsindən biri olan ərik də əkib-becərdiyi meyvə ağacları sırasındadır. Ərik Ordubadın Xanağa, Dəstə, Vənənd, Ağrı, Dizə, Düylün kəndlərində, xüsusən Vənəndçay sahillərində yetişdirilir. Ordubadda qədimdən becərilən ən məşhur ərik növləri Əbutalibi, kababı, limonnu, balyarım, qırmızı təbərzə, ağ təbərzə, növrəstə, ağ, göy, Haqverdi, şalax, hampa, ağcanabad, badamı, xosrovşahı, toxumşəmsi, qırmızıyanaq və sairdir. Kaliumla, müxtəlif vitamin və turşularla zəngin bu meyvədən qax, konserv məhsulları, miyanpur, kompot, cem, lavaşana hazırlanır. Hətta mənbələrdə Yunanıstana, Romaya Ordubaddan ərik tingləri aparılması haqqında məlumatlar var. Bir sıra səbəblərdən əriyin bir çox növləri itmək təhlükəsi altında qalmışdır. Bir vaxtlar Ordubadda yetişən bir ərik ağacı var idi, 70-ci illərdə oktyabr ayında qar əriyin üstünə yağmışdı. O növü qoruyub saxlaya bilmədik, ancaq bu günədək bir çox sortları itmək təhlükəsindən qorumuşuq. Ərik ən keyfiyyətli meyvələrini də məhz Ordubadda verir. Bu da Ordubadın torpağı və suyunun zənginliyi ilə əlaqədardır.

"Ərik ağaclarına necə qulluq etmək lazımdır ki, bol məhsul versin?" sualımın cavabında müsahibim deyir: – Onun becərilməsi çox çətin deyil. Ərik, xüsusən yaz və payız aylarında rütubətlənən torpaqları sevmir, kökləri çürüyür və quruyur. Rütubətli yerlərdə əriyi alçaya calayırlar. Badam üstündə yetişən əriklər isə quraqlığa tab gətirir. Əriyi əriyə də calamaq mümkündür. Əriklərdə xəstəliklər, adətən, yazda – mart və aprel aylarında peyda olur. Rütubət və çoxlu yağışların yağması əriklərdə xəstəlikləri çoxaldır. Ərik ağacları müntəzəm olaraq gübrələnməli və peyinlənməlidir. Əriyin torpaqdan tələb etdiyi əsas maddələr kalium, kalsiumdur. Ağacların dibinə çürümüş peyin, kompost, üzvi gübrələr verilməlidir. Ərik isti və günəşli yerləri sevir. Tez çiçəklədiyinə görə yaz şaxtaları əriyin çiçəklərini çox vaxt dondurur, çiçəklənməsi yağışlı, rütubətli vaxtlara düşəndə çiçəklər tələf olur. Əriyin gübrələnmə və suvarmaya ehtiyacı çoxdur. Əsasən, birinci suvarma ərik ağacı çiçək açmazdan əvvəl, ikinci suvarma isə çaqqala dövründə aparılır. Payızda ağac diblərinə qulluq edilməli, ağacın dibi yumşaldılmalıdır. Bundan başqa, ağaclar vaxtında, düzgün budanmalı, böyük yaralar məlhəm, parafin və ya küllə örtülməlidir. Ərik birillik şivlərdə meyvə verir. Əriklərdə ən çox görünən xəstəliklər qabıqaltı bit, qara çürümə və sairdir. Qabıqaltı bitlər vaxtında arıtlanıb dərmanlanmazsa, iki il ərzində ağaclar məhv olar.

Bağban bildirir ki, ərik çox keyfiyyətli meyvə sayılır. Əriyi uzaq məsafəyə daşımaq üçün meyvələri texniki yetişmə dövründə, yəni adi yetişmədən bir neçə gün əvvəl dərilir. Ərikdən müxtəlif məhsullar hazırlanır. Belə məhsullardan biri miyanpurdur. Miyanpur əriyin içərisinə ərik dənəsi, badam, yaxud cəviz ləpəsi qoymaqla qurudularaq hazırlanır. Növbəti məhsul lavaşanadır. Bunun üçün yetişən meyvənin şirəsini çıxardır və qaynadıb qatılaşdırır, günün altında qurudurlar. Lavaşana quruyanda üstünə üyüdülmüş cəviz və ya badam səpib rulet kimi büküb bağlayırlar. Bu lavaşana çox gözəl görünür və dadlı olur. Ərikdən həm də kompot, mürəbbə, cem hazırlayırıq. Əriyin gilənar və quşüzümü ilə kompotu yaxşı alınır. Ordubadda ərik mürəbbəsinə cəviz, badam ləpəsi də əlavə edənlər olur. Ərik qurusu isə, sözün əsl mənasında, can dərmanıdır. Əriyi dənəli və dənəsini çıxartmaqla qurudurlar. Əbutalibi ərik dənəli qurutmaq üçün daha əlverişli sortdur. Bu ərik növünü qurudanda büzüşür, ancaq qurusunu suya salanda böyük forma alır. Günün altında quruyanda bu əriyin tərkibi daha da zənginləşir və faydalı maddələri özündə saxlayır. Bilirik ki, mikroelementlərin əksəriyyəti günün altında ölmür, əksinə, onlarda kaliumun miqdarı artır. Ərik ürək xəstəlikləri, infarktın müalicəsində əvəzedilməz bir nemətdir. Ordubad mətbəxinə aid milli yeməklərimizdə bu meyvə növündən geniş istifadə olunur. Ərikdən hazırlanan müxtəlif məhsullar nəinki ölkə daxilində, ölkə xaricində də insanlar tərəfindən həvəslə alınır.

*Məqalənin sonunda onu da qeyd etmək yerinə düşər ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 12 mart tarixli Sərəncamı ilə təsdiq olunmuş "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"ndan irəli gələn vəzifələr Ordubad rayonunda da uğurla həyata keçirilir. Meyvəçiliyin və tərəvəzçiliyin inkişafı bu sahələrə olan tələbatın ödənilməsində mühüm rol oynayır.*

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

## Cari ildə Sədərək rayonunda sənaye və kənd təsərrüfatı məhsulları istehsalında dinamik artım müşahidə olunub



Sədərək rayonunda 2022-ci ilin ilk 5 ayında 1 milyon 171 min manatlıq, yaxud 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,6 faiz çox sənaye məhsulu istehsal olunub. 2022-ci ilin yanvar-may aylarında iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 7 milyon 181 min 600 manat həcmində investisiya yönəldilib. 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,2 faiz çox olan bu investisiyanın 6 milyon 608 min 100 manatı və ya 92 faizi tikinti-quraşdırma işlərinin payına düşüb. Rayonda 2022-ci ilin yanvar-may aylarında 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə yük və sərnişin daşınması da 1,4 faiz artıb. Avtomobil nəqliyyatı sahəsində fəaliyyət göstərən fiziki şəxslər tərəfindən 197 min 200 ton yük, 299 min 900 sərnişin daşınıb. Yük və sərnişin daşınmasından, bütövlükdə, 675 min 700 manat gəlir əldə edilib ki, bu da 2021-ci ilin müvafiq dövrünə nisbətən 1,3 faiz çoxdur. Sözügedən dövrdə rayon üzrə informasiya və rabitə xidmətlərinin həcmi 501 min 600 manat olub ki, bu da 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 6,6 faiz çoxdur. 2022-ci ilin yanvar-may aylarında Sədərək rayonunda 10 telefon çəkilişi olub ki, bu da 2021-ci ilin müvafiq dövrünə nisbətən 66,7 faiz çoxdur.

1 iyun 2022-ci il tarixə olan məlumata əsasən rayon ərazisində 1302 hektar sahədə əkilən yazlıq bitkilərin 85 hektarını dənli və dənli-paxlalılar (qarğıdalısız), 37 hektarını dən üçün qarğıdalı, 29 hektarını dən üçün günəbaxan, 119 hektarını kartof, 386 hektarını tərəvəz, 194 hektarını ərzaq üçün bostan bitkiləri, 452 hektarını cari ilin çoxillik otları təşkil edir.

Həmçinin 2022-ci ilin yanvar-may aylarında rayonda diri çəkidə 208 ton ət, 821 ton süd, 641 min yumurta istehsal edilib. 2021-ci ilin yanvar-may ayları ilə müqayisədə ət istehsalı 3 faiz, süd istehsalı 1,7 faiz, yumurta istehsalı 1,4 faiz artıb. Kənd təsərrüfatı sektorunda 1 milyon 404 min 100 manatlıq məhsul istehsal edilib ki, bu da 2021-ci ilin yanvar-may ayları ilə müqayisədə 1,8 faiz çoxdur.

2022-ci ilin yanvar-may aylarında rayonda əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə pərakəndə əmtəə dövriyyəsi 1,3 faiz artaraq 15 milyon 202 min 300 manat təşkil edib. Pərakəndə əmtəə dövriyyəsinin 3,3 faizini və yaxud 507 min 900 manatını iaşə əmtəə dövriyyəsi təşkil edib. 2022-ci ilin yanvar-may aylarında əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri 1,3 faiz artaraq 1 milyon 652 min 600 manat olub. Ödənişli xidmətlərin 18,8 faizi və yaxud 310 min 200 manatı məişət xidmətlərinin payına düşüb.

Rayonda 2022-ci ilin yanvar-aprel aylarında muzdla işləyənlərin ortaaylıq əməkhaqqının məbləği 662,6 manat olub ki, bu da 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 8,1 faiz çoxdur.

Qeyd edək ki, 1 iyun 2022-ci il tarixə Sədərək rayonunda əhalinin sayı 22793 nəfərdir.

**Gülnarə HÜSEYNOVA**

## Aqrar sahədə maarifləndirmə işləri davam etdirilib

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müfaviq sərəncamları ilə təsdiq edilmiş Dövlət proqramlarında və verilmiş tapşırıqlarda qarşıya qoyulmuş vəzifələrin icrası istiqamətində may ayında da maarifləndirmə işləri davam etdirilib.***

Hesabat ayında torpaq mülkiyyətçilərinin iştirakı ilə kənd təsərrüfatı torpaqlarının münbitliyinin artırılmasında aparılacaq aqrotexniki tədbirlər, yağlı bitkilərin aqrotexniki qaydalara uyğun əkilib-becərilməsi, tütün bitkisinin əkininin aparılması texnologiyası, üzüm və meyvə bağlarında xəstəlik və zərərvericilərə qarşı kimyəvi mübarizə tədbirlərinin həyata keçirilməsi mövzularında müşavirələr keçirilib. Nazirliyin Fitosanitar nəzarəti, bitkilərin mühafizəsi və karantini şöbəsinin əməkdaşları Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi tərəfindən verilmiş pestisidləri əkin sahələrində karantin mənşəli zərərvericilər, alaq otları, siçan və siçanabənzər gəmiricilərlə kimyəvi mübarizə tədbirlərinin aparılması üçün rayon icra hakimiyyətlərinin əməkdaşlarına təhvil verib, torpaq mülkiyyətçilərini dərman preparatları ilə bağlı ətraflı məlumatlandırıblar.



Ay ərzində nazirliyə meyvə bağları və üzümlüklərdə yaz dövrü həyata keçiriləcək vacib tədbirlərlə əlaqədar olaraq müraciət edən 13 vətəndaşın əkin sahələrinə baxış keçirilib, onlara lazımi tövsiyələr verilib. Nazirliyin əməkdaşları tərəfindən Naxçıvan Dövlət Universitetinin və Naxçıvan şəhərindəki "N" hərbi hissənin yaşıllıq zolaqlarında və dekorativ bitkilərdə müşahidələr aparılaraq mövcud olan zərərvericilərə qarşı həyata keçirilən kimyəvi mübarizə tədbirlərində əməli köməklik göstərilib.

Taxıl biçini kampaniyasına hazırlıqla əlaqədar "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin nümayəndələri ilə birlikdə may ayı ərzində muxtar respublikanın rayonlarında taxılbiçən kombaynların sahibkarları ilə fərdi qaydada söhbətlər aparılıb. Biçində iştirak edəcək kombaynların texniki vəziyyəti və sayı müəyyən edilib, texnika mülkiyyətçiləri ilə taxıl biçini kampaniyasının optimal müddətdə başa çatdırılması üçün görülməsi zəruri olan tədbirlər haqqında ətraflı söhbətlər aparılıb.

Hesabat ayında akademik Həsən Əliyev adına "Araz" Elm-İstehsalat Birliyinin Aqrokimya, torpaqşünaslıq və torpaqların kütləvi analizləri şöbəsi tərəfindən pomidor əkiləcək sahədən götürülmüş torpaq nümunələrinin aqrokimyəvi xüsusiyyətlərinin təyini analizləri aparılıb. Təcrübə sahəsində əkiləcək pomidor sortlarının şitilləri sahəyə əkilib və hər sortun adları yazılaraq etiketləri sahəyə vurulub.

Naxçıvan Dövlət Universitetinin Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsinin Torpaqşünaslıq və aqrokimya ixtisası üzrə istehsalat təcrübəsində olan tələbələrinə laboratoriyada torpaqların qida maddələrinin, humusun, karbonatlığın, mühitin və elektrik keçiriciliyinin təyini analizlərinin aparılması öyrədilib. Tələbələrə torpaqların qida maddələri ilə təminolunma dərəcələrinə əsasən gübrə normalarının hesablanması, kartoqramların hazırlanması haqqında da məlumat verilib.

Muxtar respublikanın torpaq-iqlim şəraitində 2021-2022-ci təsərrüfat ilində sınaq üçün əkilmiş 32 yumşaq, 7 bərk buğda və 5 arpa sortlarının fenoloji müşahidələri aparılıb.

Toxumçuluq və Bitkilərin Mühafizəsi İdarəsinin mütəxəssisləri tərəfindən idarəyə müraciət edən 43 təsərrüfat sahibinin üzüm və meyvə bağlarına baxışlar keçirilib, xəstəlik və zərərvericilərin vaxtında qarşısının alınması üçün tələb olunan mübarizə tədbirləri haqqında məsləhət və tövsiyələr verilib.

Heyvandarlıqda mal-qaranın cins tərkibinin yaxşılaşdırılması, ana malların süni mayalandırılması, qoyunçuluq təsərrüfatında qoyunlar arasında yun qırxımının mütəşəkkil keçirilməsi və yaylaq mövsümünə hazırlıq, quşlara zoobaytar qaydalara uyğun qulluq edilməsi, yumurta istehsalının artırılması və quşlar arasında baytarlıq tədbirlərinin görülməsi, erkən yazda arı ailələrinə qulluq edilməsinin əhəmiyyəti mövzularında təsərrüfat sahibləri ilə fərdi qaydada söhbətlər aparılıb.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzi Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan müəssisələrdə vakant vəzifələrin tutulması üçün müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər 30 iyun-30 iyul 2022-ci il tarixlərdə Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzinin internet portalında *(www.dim.nmr.az)* “şəxsi kabinet” bölməsinə daxil olaraq elektron müraciət formasını doldurmaqla qeydiyyatdan keçməlidirlər.

Namizədlər 90 manat ödəniş məbləğini “şəxsi kabinet” vasitəsilə bank kartları ilə ödəyə bilərlər. Digər halda həmin məbləğ Dövlət İmtahan Mərkəzinin “Naxçıvan-bank” Açıq Səhmdar Cəmiyyətindəki bank hesabına (AZ50NAXB36015000024840000AZN) ödənməli və ödənişə dair qəbz həftənin iş günləri saat $9^{00}$-dan $12^{30}$-dək və $14^{00}$-dan $17^{30}$-dək mərkəzə təqdim edilməlidir.

Namizəd bir neçə vakant vəzifənin tutulması üçün müraciət edə bilər.

Namizədlər elektron müraciət formasını doldurarkən iddia etdikləri vakant vəzifələrin tutulma şərtlərini nəzərə almalıdırlar.

Qeydiyyatdan keçməkdə çətinlik çəkən namizədlər Dövlət İmtahan Mərkəzinə gəlməklə müraciət edə bilərlər.

Maraqlananlar Dövlət İmtahan Mərkəzinin (036) 545-65-71 nömrəli əlaqə telefonu və ya *dim@nmr.az* elektron poçt ünvanı vasitəsilə ətraflı məlumat əldə edə bilərlər.

| Vəzifə kodu | Struktur bölmə və vəzifə | Ştat sayı |
|---|---|---|
| | **Naxçıvan şəhəri üzrə:** | |
| | **“Naxçıvan Muxtar Respublika Xəstəxanası” publik hüquqi şəxs** | |
| 98010035 | Həkim-anestezioloq-reanimatoloq | 3 |
| 98010046 | Həkim-cərrah | 1 |
| 98010112 | Həkim-damar cərrahı | 1 |
| 98010111 | Həkim-endoskopist kolonoskopiya üzrə | 1 |
| 98010069 | Həkim-nefroloq | 1 |
| 98010074 | Həkim-okulist | 1 |
| 98010090 | Həkim-stomatoloq | 2 |
| 98010113 | Həkim-torokal cərrah | 1 |
| 98010043 | Həkim-üz-çənə cərrahı | 1 |
| 98010044 | Həkim-anestezioloq | 1 |
| 98010049 | Həkim-endokrinoloq | 1 |
| 98010061 | Həkim-kardioloq | 1 |
| 98010065 | Həkim-LOR | 2 |
| 98010071 | Həkim-nevropatoloq | 1 |
| 98010072 | Həkim-neyrotravmatoloq | 1 |
| 98010077 | Həkim-ortoped | 1 |
| 98010084 | Həkim-psixoterapevt | 1 |
| 98010091 | Həkim-terapevt | 1 |
| 98010092 | Həkim-travmatoloq | 2 |
| | **“Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanası” publik hüquqi şəxs** | |
| 98011034 | EXO üzrə həkim-funksional diaqnostik | 1 |
| 98011041 | Həkim-ordinator plastik cərrah | 1 |
| 98011046 | Həkim-cərrah | 1 |
| 98011053 | Həkim-ftiziatr | 1 |
| 98011055 | Həkim-ginekoloq | 1 |
| 98011063 | Həkim-kardiorevmatoloq | 1 |
| 98011071 | Həkim-nevropatoloq | 2 |
| 98011080 | Həkim-pediatr | 5 |
| 98011088 | Həkim-reanimatoloq | 1 |
| 98011092 | Həkim-travmatoloq | 1 |
| 98011098 | Qəbul otağı üzrə həkim | 2 |
| 98011108 | Uşaq müəssisələri kollektivlərində iş üzrə təşkil olunmuş pediatrik kabinə həkimi | 5 |
| 98011090 | Həkim-stomatoloq | 1 |
| | **“Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzi” publik hüquqi şəxs** | |
| 98012035 | Həkim-anestezioloq-reanimatoloq | 2 |
| 98012153 | Həkim-androloq | 1 |
| 98012066 | Həkim-mama-ginekoloq | 3 |
| 98012088 | Həkim-reanimatoloq | 1 |
| 98012103 | Sahələr üzrə həkim-mama-ginekoloq | 3 |
| 98012046 | Həkim-cərrah | 1 |
| 98012048 | Həkim-dermatovenerolog | 1 |
| 98012084 | Həkim-psixoterapevt | 1 |
| | **“Naxçıvan Diaqnostika Müalicə Mərkəzi” publik hüquqi şəxs** | |
| 98013035 | Həkim-anestezioloq-reanimatoloq | 3 |
| 98013060 | Həkim-kardiocərrah | 1 |
| 98013061 | Həkim-kardioloq | 1 |
| 98013064 | Həkim-laborant | 2 |
| 98013073 | Həkim-oftalmoloq | 1 |
| 98013085 | Həkim-pulmonoloq-allerqoloq | 1 |
| 98013091 | Həkim-terapevt | 1 |
| 98013094 | Həkim-uroloq | 2 |
| | **“Naxçıvan Muxtar Respublikası Kardioloji Mərkəz” publik hüquqi şəxs** | |
| 98014115 | Həkim-funksionalist | 1 |
| 98014061 | Həkim-kardioloq | 1 |
| 98014062 | Həkim-kardioreanimatoloq | 3 |
| 98014067 | Həkim-metodist icbari tibbi sığorta üzrə | 1 |
| 98014071 | Həkim-nevropatoloq | 1 |
| 98014033 | Həkim-kardioloq-angioqrafiya üzrə | 1 |
| | **“Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri Dispanseri” publik hüquqi şəxs** | |
| 98015046 | Həkim-cərrah | 1 |
| 98015053 | Həkim-ftiziatr | 1 |
| 98015080 | Həkim-pediatr | 1 |
| 98015053 | Qəbul otağı üzrə həkim-ftiziatr | 2 |
| | **“Naxçıvan Şəhər Təcili Tibb Mərkəzi” publik hüquqi şəxs** | |
| 98101106 | Təcili yardım üzrə həkim | 7 |
| | **Naxçıvan Muxtar Respublikası Onkoloji Mərkəz** | |
| 98016044 | Həkim-anestezioloq | 1 |
| 98016075 | Həkim-onkoloq | 1 |
| 98016086 | Həkim-radioloq | 1 |
| 98016089 | Həkim-rentgenoloq | 1 |
| | **Yaqub Budaqov adına Psixi Xəstəliklər Dispanseri** | |
| 98017032 | Alkoqol sərxoşluğunu müayinə edən həkim | 1 |
| 98017064 | Həkim-laborant | 1 |
| 98017067 | Həkim-metodist | 1 |
| 98017068 | Həkim-narkoloq | 1 |
| 98017082 | Həkim-psixiatr | 3 |
| 98017084 | Həkim-psixoterapevt | 1 |
| 98017101 | Məhkəmə psixiatriya və narkologiya üzrə həkim-ekspert | 2 |
| 98017102 | Sahə üzrə həkim-psixiatr | 2 |
| | **Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi** | |
| 98018079 | Həkim-patoloq-anatom | 3 |
| | **“Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzi” publik hüquqi şəxs** | |
| 98019052 | Həkim-fizioterapiya üzrə | 1 |
| 98019067 | Həkim-metodist | 1 |
| 98019048 | Həkim-dermatovenerolog | 1 |
| 98019058 | Həkim-infeksionist | 1 |
| 98019081 | Həkim-pediatr-reanimatoloq | 1 |
| 98019088 | Həkim-reanimatoloq | 3 |
| | **Naxçıvan Muxtar Respublikası “Stomatoloji Mərkəz” publik hüquqi şəxs** | |
| 98020090 | Həkim-stomatoloq | 1 |
| | **“Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikası” publik hüquqi şəxs** | |
| 98102091 | Həkim-terapevt | 8 |
| 98102055 | Həkim-ginekoloq | 1 |
| 98102073 | Həkim-oftalmoloq | 1 |
| 98102118 | Provizor | 1 |
| | **Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzi** | |
| 98099051 | Həkim-epidemioloq hava limanı və gömrük məntəqələri üzrə | 1 |
| 98099117 | Sanitar həkim | 1 |
| | **Cəmi:** | **133** |
| | **Şərur rayonu üzrə:** | |
| | **“Şərur Rayon Mərkəzi Xəstəxanası” publik hüquqi şəxs** | |
| 98201119 | Həkim-ftiziatr-infeksionist | 1 |
| 98201070 | Həkim-neonatoloq | 1 |
| 98201092 | Həkim-travmatoloq | 1 |
| 98201094 | Həkim-uroloq | 1 |
| 98201044 | Həkim-anestezioloq | 2 |
| 98201049 | Həkim-endokrinoloq | 2 |
| 98201050 | Həkim-endoskopist | 1 |
| 98201063 | Həkim-kardiorevmatoloq | 1 |
| 98201064 | Həkim-laborant | 1 |
| 98201065 | Həkim-LOR | 1 |
| 98201071 | Həkim-nevropatoloq | 1 |
| 98201073 | Həkim-oftalmoloq | 1 |
| 98201076 | Həkim-onkoloq-cərrah | 1 |
| 98201083 | Həkim-psixonarkoloq | 1 |
| 98201087 | Həkim-radioloq tomoqrafiya üzrə | 1 |
| 98201091 | Həkim-terapevt | 2 |
| 98201098 | Qəbul otağı üzrə həkim | 2 |
| 98201911 | Tibb bacısı(qardaşı) | 2 |
| | **Aşağı Aralıq kənd sahə xəstəxanası** | |
| 98211098 | Qəbul otağı üzrə həkim | 1 |
| | **Aşağı Yaycı kənd həkim ambulatoriyası** | |
| 98220090 | Həkim-stomatoloq | 1 |
| | **Axura kənd həkim ambulatoriyası** | |
| 98221090 | Həkim-stomatoloq | 1 |
| 98221911 | Tibb bacısı | 1 |
| | **Siyaqut kənd həkim ambulatoriyası** | |
| 98238090 | Həkim-stomatoloq | 1 |
| | **Çərçiboğan kənd həkim ambulatoriyası** | |
| 98223090 | Həkim-stomatoloq | 1 |
| 98223066 | Həkim-mama-ginekoloq | 1 |
| | **Düdəngə kənd həkim ambulatoriyası** | |
| 98226090 | Həkim-stomatoloq | 1 |
| | **Qarxun kənd həkim ambulatoriyası** | |
| 98230080 | Həkim-pediatr | 1 |
| 98230090 | Həkim-stomatoloq | 1 |
| | **Cəlilkənd kənd həkim ambulatoriyası** | |
| 98222911 | Tibb bacısı | 1 |
| | **Mahmudkənd kənd həkim ambulatoriyası** | |
| 98232090 | Həkim-stomatoloq | 1 |
| | **Maxta kənd həkim ambulatoriyası** | |
| 98233066 | Həkim-mama-ginekoloq | 1 |
| 98233090 | Həkim-stomatoloq | 1 |
| | **Məmmədsabir kənd həkim ambulatoriyası** | |
| 98231090 | Həkim-stomatoloq | 1 |
| 98231910 | Mama | 1 |
| | **Oğlanqala kənd həkim ambulatoriyası** | |
| 98235090 | Həkim-stomatoloq | 1 |
| 98235909 | Laborant | 1 |
| | **Püsyan kənd həkim ambulatoriyası** | |
| 98236066 | Həkim-mama-ginekoloq | 1 |
| | **Yuxarı Daşarx kənd həkim ambulatoriyası** | |
| 98240090 | Həkim-stomatoloq | 1 |
| | **Yuxarı Havuş kənd feldşer-mama məntəqəsi** | |
| 98273910 | Mama | 1 |
| | **Yeni Havuş kənd feldşer-mama məntəqəsi** | |
| 98274910 | Mama | 1 |
| | **“Şərur Rayon Uşaq Xəstəxanası” publik hüquqi şəxs** | |
| 98202036 | Həkim-cərrah-travmatoloq | 1 |
| 98202037 | Həkim-funksional-diaqnostik (USM üzrə) | 1 |
| 98202048 | Həkim-dermatovenerolog | 1 |
| 98202049 | Həkim-endokrinoloq | 1 |
| 98202052 | Həkim-fizioterapevt | 1 |
| 98202063 | Həkim-kardiorevmatoloq | 1 |
| 98202065 | Həkim-LOR | 1 |
| 98202071 | Həkim-nevropatoloq | 1 |
| 98202073 | Həkim-oftalmoloq | 1 |
| 98202098 | Qəbul otağı üzrə həkim | 4 |
| 98202119 | Həkim-ftiziatr-infeksionist | 1 |
| | **Şərur Rayon Gigiyena və Epidemiologiya Şöbəsi** | |
| 98299110 | Uşaq və yeniyetmə gigiyenası üzrə sanitar həkim | 1 |
| 98299906 | Sanitar həkim köməkçisi | 1 |
| 98299099 | Sanitar həkim qida gigiyenası üzrə | 1 |
| | **Cəmi:** | **62** |
| | **Babək rayonu üzrə:** | |
| | **“Babək Rayon Mərkəzi Xəstəxanası” publik hüquqi şəxs** | |
| 98301042 | Həkim-reanimatoloq-anestezioloq | 1 |
| 98301046 | Həkim-cərrah | 2 |
| 98301048 | Həkim-dermatovenerolog | 1 |
| 98301049 | Həkim-endokrinoloq | 1 |
| 98301052 | Həkim-fizioterapevt | 1 |
| 98301053 | Həkim-ftiziatr | 1 |
| 98301056 | Həkim-herontoloq | 1 |
| 98301063 | Həkim-kardiorevmatoloq | 1 |
| 98301064 | Həkim-laborant | 1 |
| 98301065 | Həkim-LOR | 1 |
| 98301069 | Həkim-nefroloq | 1 |
| 98301073 | Həkim-oftalmoloq | 1 |
| 98301075 | Həkim-onkoloq | 1 |
| 98301080 | Həkim-pediatr | 2 |
| 98301083 | Həkim-psixonarkoloq | 1 |
| 98301091 | Həkim-terapevt yeniyetmələr üzrə | 1 |
| 98301109 | Uşaq nevropatoloqu | 1 |
| 98301098 | Qəbul otağı üzrə həkim | 2 |
| | **Cəhri qəsəbə sahə xəstəxanası** | |
| 98311070 | Həkim-neonatoloq | 1 |
| 98311095 | Həkim-USM üzrə | 1 |
| 98311098 | Qəbul otağı üzrə həkim | 1 |
| | **Nehrəm qəsəbə sahə xəstəxanası** | |
| 98312098 | Qəbul otağı üzrə həkim | 2 |
| 98312066 | Həkim-mama-ginekoloq | 1 |
| | **Sirab kənd həkim ambulatoriyası** | |
| 98326080 | Həkim pediatr | 1 |
| | **Zeynəddin kənd həkim ambulatoriyası** | |
| 98327911 | Tibb bacısı | 1 |
| | **Güznüt kənd həkim ambulatoriyası** | |
| 98322090 | Həkim-stomatoloq | 1 |
| | **Qahab kənd həkim ambulatoriyası** | |
| 98329090 | Həkim-stomatoloq | 1 |
| | **Şıxmahmud kənd həkim ambulatoriyası** | |
| 98330090 | Həkim-stomatoloq | 1 |
| | **Kültəpə kənd həkim ambulatoriyası** | |
| 98323090 | Həkim-stomatoloq | 1 |
| | **Sirab kənd həkim ambulatoriyası** | |
| 98326090 | Həkim-stomatoloq | 1 |

| | | |
|---|---|---|
| | **Yarımca kənd həkim ambulatoriyası** | |
| 98331090 | Həkim-stomatoloq | 1 |
| | **Aşağı Buzqov kənd həkim ambulatoriyası** | |
| 98320090 | Həkim-stomatoloq | 1 |
| | **Cəmi:** | **36** |
| | **Ordubad rayonu üzrə:** | |
| | **“Ordubad Rayon Mərkəzi Xəstəxanası” publik hüquqi şəxs** | |
| 98401042 | Həkim-reanimatoloq-anestezioloq | 1 |
| 98401046 | Həkim-cərrah | 1 |
| 98401048 | Həkim-dermatovenereoloq | 1 |
| 98401049 | Həkim-endokrinoloq | 1 |
| 98401052 | Həkim-fizioterapevt | 1 |
| 98401053 | Həkim-ftiziatr | 1 |
| 98401059 | Həkim-infeksionist izolyasiya üzrə | 1 |
| 98401064 | Həkim-laborant | 1 |
| 98401067 | Həkim-metodist | 1 |
| 98401070 | Həkim-neonatoloq | 1 |
| 98401071 | Həkim-nevropatoloq | 1 |
| 98401073 | Həkim-oftalmoloq | 1 |
| 98401075 | Həkim-onkoloq | 1 |
| 98401083 | Həkim-psixonarkoloq | 1 |
| 98401092 | Həkim-travmatoloq | 1 |
| 98401098 | Qəbul otağı üzrə həkim | 4 |
| 98401104 | Təcili tibbi yardım həkimi | 2 |
| 98401911 | Tibb bacısı | 1 |
| 98401912 | Tibbi qeydiyyatçı | 1 |
| | **Dəstə kənd həkim ambulatoriyası** | |
| 98421064 | Həkim-laborant | 1 |
| 98421080 | Həkim-pediatr | 1 |
| | **Dırnıs kənd həkim ambulatoriyası** | |
| 98422080 | Həkim-pediatr | 1 |
| | **Üstüpü kənd həkim ambulatoriyası** | |
| 98427090 | Həkim-stomatoloq | 1 |
| | **Tivi kənd həkim ambulatoriyası** | |
| 98426090 | Həkim-stomatoloq | 1 |
| 98426911 | Tibb bacısı | 1 |
| 98426912 | Tibbi qeydiyyatçı | 1 |
| | **Yuxarı Əylis kənd həkim ambulatoriyası** | |
| 98429090 | Həkim-stomatoloq | 1 |
| 98429910 | Mama | 1 |
| 98429912 | Tibbi qeydiyyatçı | 1 |
| | **Nəsirvaz kənd feldşer-mama məntəqəsi** | |
| 98476910 | Mama | 1 |
| | **Kələki kənd feldşer-mama məntəqəsi** | |
| 98472910 | Mama | 1 |
| | **Kotam kənd feldşer-mama məntəqəsi** | |
| 98473910 | Mama | 1 |
| | **Nürgüt kənd feldşer-mama məntəqəsi** | |
| 98474910 | Mama | 1 |
| | **Pəzməri kənd feldşer-mama məntəqəsi** | |
| 98475910 | Mama | 1 |
| | **“Ordubad Rayon Uşaq Xəstəxanası” publik hüquqi şəxs** | |
| 98401036 | Həkim-cərrah-travmatoloq | 1 |
| 98401054 | Həkim-funksionalist (USM) | 1 |
| 98401065 | Həkim-LOR | 1 |
| 98401073 | Həkim-oftalmoloq | 1 |
| 98401064 | Həkim-laborant | 1 |
| 98401122 | Psixoloq loqoped | 1 |
| | **Ordubad Rayon Gigiyena və Epidemiologiya Şöbəsi** | |
| 98499099 | Qida gigiyenası üzrə sanitar həkim | 1 |
| 98499110 | Uşaq və yeniyetmə gigiyenası üzrə sanitar həkim | 1 |
| | **Cəmi:** | **46** |
| | **Culfa rayonu üzrə:** | |
| | **“Culfa Rayon Mərkəzi Xəstəxanası” publik hüquqi şəxs** | |
| 98501031 | Baş pediatr | 1 |
| 98501040 | Həkim-infeksionist-izolyator üzrə | 1 |
| 98501047 | Həkim-dermatoloq | 1 |
| 98501052 | Həkim-fizioterapevt | 1 |
| 98501065 | Həkim-LOR | 1 |
| 98501067 | Həkim-metodist | 1 |
| 98501080 | Həkim-pediatr | 2 |
| 98501082 | Həkim-psixonarkoloq | 1 |
| 98501092 | Həkim-travmatoloq | 1 |
| 98501098 | Qəbul otağı üzrə həkim | 2 |
| 98501105 | Həkim təcili yardım üzrə | 3 |
| 98501049 | Həkim endokrinoloq | 1 |
| 98501909 | Laborant | 1 |
| | **Qazançı kənd həkim ambulatoriyası** | |
| 98530910 | Mama | 1 |
| 98530090 | Həkim-stomatoloq | 1 |
| | **Ərəfsə kənd həkim ambulatoriyası** | |
| 98522090 | Həkim-stomatoloq | 1 |

| | | |
|---|---|---|
| | **Milax kənd həkim ambulatoriyası** | |
| 98528090 | Həkim-stomatoloq | 1 |
| | **Xoşkeşin kənd həkim ambulatoriyası** | |
| 98526090 | Həkim-stomatoloq | 1 |
| | **Camaldın kənd həkim ambulatoriyası** | |
| 98521090 | Həkim-stomatoloq | 1 |
| | **Əbrəqunus kənd həkim ambulatoriyası** | |
| 98531090 | Həkim-stomatoloq | 1 |
| | **Ərəzin kənd həkim ambulatoriyası** | |
| 98523090 | Həkim-stomatoloq | 1 |
| | **Göydərə kənd həkim ambulatoriyası** | |
| 98524090 | Həkim-stomatoloq | 1 |
| | **Dizə kənd feldşer-mama məntəqəsi** | |
| 98572911 | Tibb bacısı | 1 |
| | **Boyəhməd kənd feldşer-mama məntəqəsi** | |
| 98571911 | Tibb bacısı | 1 |
| | **Culfa Rayon Gigiyena və Epidemiologiya Şöbəsi** | |
| 98599078 | Parazitoloq | 1 |
| 98599110 | Uşaq yeniyetmə gigiyenası üzrə sanitar həkim | 1 |
| 98599906 | Sanitar həkim köməkçisi | 1 |
| | **Cəmi:** | **31** |
| | **Kəngərli rayonu üzrə:** | |
| | **“Kəngərli Rayon Mərkəzi Xəstəxanası” publik hüquqi şəxs** | |
| 98601031 | Baş pediatr | 1 |
| 98601035 | Həkim-anestezioloq-reanimatoloq | 1 |
| 98601036 | Həkim-cərrah-travmatoloq | 1 |
| 98601039 | Həkim-infeksionist-ftiziatr | 1 |
| 98601046 | Həkim-cərrah | 1 |
| 98601048 | Həkim-dermatovenereoloq | 1 |
| 98601049 | Həkim-endokrinoloq | 1 |
| 98601063 | Həkim-kardiorevmatoloq | 1 |
| 98601065 | Həkim-LOR | 1 |
| 98601067 | Həkim-metodist | 1 |
| 98601070 | Həkim-neonatoloq | 1 |
| 98601071 | Həkim-nevropatoloq | 1 |
| 98601073 | Həkim-oftalmoloq | 1 |
| 98601080 | Həkim-pediatr | 2 |
| 98601083 | Həkim-psixonarkoloq | 1 |
| 98601089 | Həkim-rentgenoloq | 1 |
| 98601098 | Qəbul otağı üzrə həkim | 2 |
| | **Çalxanqala kənd həkim ambulatoriyası** | |
| 98622090 | Həkim-stomatoloq | 1 |
| | **Xok kənd həkim ambulatoriyası** | |
| 98620080 | Həkim-pediatr | 1 |
| | **Qarabağlar kənd həkim ambulatoriyası** | |
| 98624090 | Həkim-stomatoloq | 1 |
| | **Böyükdüz kənd həkim ambulatoriyası** | |
| 98623090 | Həkim-stomatoloq | 1 |
| | **Kəngərli Rayon Gigiyena və Epidemiologiya Şöbəsi** | |
| 98699045 | Bakterioloq | 1 |
| | **Cəmi:** | **24** |
| | **Şahbuz rayonu üzrə:** | |
| | **“Şahbuz Rayon Mərkəzi Xəstəxanası” publik hüquqi şəxs** | |
| 98701031 | Baş pediatr | 1 |
| 98701035 | Həkim-anestezioloq-reanimatoloq | 1 |
| 98701046 | Həkim-cərrah | 1 |
| 98701048 | Həkim-dermatovenereoloq | 1 |
| 98701063 | Həkim-kardiorevmatoloq | 1 |
| 98701065 | Həkim-LOR | 1 |
| 98701067 | Həkim-metodist | 1 |
| 98701070 | Həkim-neonatoloq | 1 |
| 98701071 | Həkim-nevropatoloq | 1 |
| 98701073 | Həkim-oftalmoloq | 2 |
| 98701083 | Həkim-psixonarkoloq | 1 |
| 98701089 | Həkim-rentgenoloq | 1 |
| 98701098 | Qəbul otağı üzrə həkim | 2 |
| 98701080 | Sahə üzrə həkim pediatr | 1 |
| 98701104 | Təcili tibbi yardım üzrə həkim | 1 |
| | **Keçili kənd həkim ambulatoriyası** | |
| 98724090 | Həkim-stomatoloq | 1 |
| | **Nursu kənd həkim ambulatoriyası** | |
| 98729090 | Həkim-stomatoloq | 1 |
| | **Ağbulaq kənd həkim ambulatoriyası** | |
| 98721090 | Həkim-stomatoloq | 1 |
| | **Kükü kənd həkim ambulatoriyası** | |
| 98732914 | Feldşer | 1 |
| | **Şahbuz Rayon Gigiyena və Epidemiologiya Şöbəsi** | |
| 98799045 | Bakterioloq | 1 |
| 98799099 | Qida gigiyenası üzrə sanitar həkim | 1 |
| | **Cəmi:** | **23** |

| | | |
|---|---|---|
| | **Sədərək rayonu üzrə:** | |
| | **“Sədərək Rayon Mərkəzi Xəstəxanası” publik hüquqi şəxs** | |
| 98801031 | Baş pediatr | 1 |
| 98801035 | Həkim-anestezioloq-reanimatoloq | 1 |
| 98801063 | Həkim-kardiorevmatoloq | 1 |
| 98801046 | Həkim-cərrah | 1 |
| 98801053 | Həkim-ftiziatr | 1 |
| 98801054 | Həkim-funksional-diaqnostik (USM üzrə) | 1 |
| 98801058 | Həkim-infeksionist | 1 |
| 98801064 | Həkim-laborant | 1 |
| 98801065 | Həkim-LOR | 1 |
| 98801066 | Həkim-mama-ginekoloq | 2 |
| 98801067 | Həkim-metodist | 1 |
| 98801071 | Həkim-nevropatoloq | 1 |
| 98801073 | Həkim-oftalmoloq | 1 |
| 98801080 | Həkim-pediatr | 2 |
| 98801083 | Həkim-psixonarkoloq | 1 |
| 98801089 | Həkim-rentgenoloq | 1 |
| 98801091 | Həkim-terapevt | 3 |
| 98801105 | Təcili yardım üzrə həkim | 3 |
| 98801911 | Tibb bacısı | 8 |
| 98801913 | Tibbi statist | 1 |
| | **Heydərabad kənd həkim ambulatoriyası** | |
| 98802910 | Mama | 1 |
| 98802911 | Tibb bacısı | 1 |
| | **Qaraağac kənd feldşer-mama məntəqəsi** | |
| 98870910 | Mama | 1 |
| | **Sədərək Rayon Gigiyena və Epidemiologiya Şöbəsi** | |
| 98899904 | Dezinfektor təlimatçısı | 1 |
| 98899045 | Bakterioloq | 1 |
| 98899905 | Epidemioloq köməkçisi | 1 |
| 98899906 | Sanitar həkim köməkçisi | 1 |
| | **Cəmi:** | **40** |
| | **Yekun:** | **395** |

## IELTS qeydiyyat və imtahan mərkəzində növbəti imtahan keçirilib



Naxçıvan Dövlət Universitetinin Xarici dillər fakültəsində yaradılan IELTS qeydiyyat və imtahan mərkəzində növbəti imtahan keçirilib. Həm General IELTS, həm də akademik IELTS olaraq nəzərdə tutulan imtahanda 70-ə yaxın tələbənin akademik IELTS bacarıqları qiymətləndirilib. Namizədlər iyun ayının 24-də IELTS danışıq imtahanında iştirak edib, 1 gün sonra onların dinləmə, oxu və yazı bacarıqları qiymətləndirilib.

İmtahanda oxuma və dinləmə prosesində sualların tərtib edilməsini, yazı və danışıq mərhələsində sualların hazırlanmasını Britaniya Şurası həyata keçirib.

Qeyd edək ki, Azərbaycan ali təhsil məkanında ilk dəfə olaraq Naxçıvan Dövlət Universitetində yaradılan qeydiyyat və imtahan mərkəzinin məqsədi muxtar respublikamızı yarışda sahə üzrə ingilis dili bacarıqlarının qiymətləndirilməsi və namizədlərin beynəlxalq sertifikatla təmin olunmasıdır. Mərkəz yaxın zamanda universitetdə ingilis dilində ixtisasların sayının artmasına və qeyri-ixtisaslarda çalışan əməkdaşların ingilis dili bacarıqlarının qiymətləndirilməsinə öz müsbət təsirini göstərəcək.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## Naxçıvan güləşçiləri *“Şuşa - 270”* turnirində iştirak ediblər

Abşeron Rayon Gənclər və İdman İdarəsi, “Motivator Azərbaycan” və Aslanov Güləş Akademiyasının birgə təşkilatçılığı ilə açıq birincilik keçirilib. Abşeron Olimpiya İdman Kompleksində reallaşan yarışda Azərbaycanla yanaşı, Ukrayna, Qazaxıstan və İrandan, ümumilikdə, 307 idmançı iştirak edib.



Naxçıvan Güləş Federasiyasının sədr müavini Faiq İsgəndərovun rəhbərliyi ilə muxtar respublikamızı yarışda 1 məşqçi və 7 idmançı təmsil edib. Güləşçilərimizdən 3-ü mükafatçılar sırasına düşüb. Belə ki, Anar Həsənli (42 kiloqram), Toğrul Axundlu (29 kiloqram) və Ələkbər Əsgərli (26 kiloqram) sərbəst güləşdə 3-cü olublar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

### *İtmişdir*

Kəngərli rayonunun Qabıllı kənd sakini Babayev Heydər Səfər oğlunun adına olan JN-031A inventar nömrəli, 10211028 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.


**ŞƏRQ qapısı**

**Baş redaktor:** MEHRİBAN SULTANOVA

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Səbuhi Həsənov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1500. Sifariş № 580